# 2013-cü ilin birinci yarısı– uğurlar, perspektivlər

(Əvvəli 4-cü səhifədə).

Bütün bu tədbirlər “Evronyus” telekanalında dünya tamaşaçılarına təqdim edilir. Təbii ki, bu da hər birimizi ürəkdən sevindirir.

**Hörmətli toplantı iştirakçıları!**

Gənclər və İdman İdarəsində ötən dövr ərzində 35 tədbir həyata keçirilmişdir. Bunlardan 20 tədbir gənclərlə iş sahəsini, 15 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir.

Gənclərlə iş sahəsində respublika üzrə keçirilən 10 tədbirdə, idman sahəsi üzrə isə 26 yarış və birincilikdə idmançılarımız rayonumuzu təmsil etmişlər.

Qəbələ Olimpiya İdman Kompleksi tərəfindən də idmanın inkişaf etdirilməsi, olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması və bu kimi işlərin görülməsi müntəzəm olaraq davam etdirilir.

2013-cü ilin 6 ayında 21433 nəfər kompleksin xidmətlərindən istifadə etmişdir.

Qəbələ Olimpiya İdman Kompleksində 2013-cü ilin yanvar ayında Boks üzrə kişilərdən ibarət respublika milli komandası, fevral ayında isə boks üzrə qadınlardan ibarət respublika milli komandasının təlim-məşq toplanışı keçirilmişdir.

2009-cu ildən fəaliyyət göstərən Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində 6 ixtisas üzrə 198 nəfər şagird təhsil alır. Bunlardan 98 nəfəri ümumi orta təhsil bazasından, 100 nəfəri isə tam orta təhsil bazasından olan şagirdlərdir.

Mərkəz rayonda fəaliyyət göstərən istirahət mərkəzləri ilə sıx əməkdaşlıq edir, onların ixtisaslı kadrlara olan tələbatını ödəyir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2013-cü ilin altı ayı ərzində rayon icra başçısı aparatına ümumilikdə 546 ərizə daxil olmuşdur. Bundan 205-i Azərbaycan Respublikasının Prezidenti Administrasiyasından, 17-si Milli Məclisdən, 8-i Nazirlər Kabinetindən, 44-ü isə mərkəzi icra orqanlarındandır.

Qeydiyyata alınan ərizələrin hər birinə RİH-də baxılaraq qanunamüvafiq qaydada cavab verilmişdir.

Daxil olan müraciətlərdə ilk növbədə ölkə rəhbərliyi tərəfindən Azərbaycan vətəndaşlarının bu günü və gələcəyi naminə həyata keçirilən geniş miqyaslı quruculuq işlərindən, yerlərdə müasir tələblərə cavab verən sosial obyektlərin tikilib istifadəyə verilməsindən razılıq hissləri ifadə olunur və cənab Prezidentin gördüyü geniş miqyaslı xeyirxah işlər olduqca yüksək qiymətləndirilir.

Eyni zamanda cari ilin altı ayı ərzində rayon icra hakimiyyətində başçı tərəfindən 681 nəfər vətəndaş qəbul edilərək dinlənilmiş, qəbul zamanı səslənən məsələlərin çox hissəsi yerində araşdırılaraq həll edilmiş, icrası vaxt tələb edən məsələlər isə aidiyyəti üzrə tapşırılmışdır.

Cari ilin 6 ayında rayon icra hakimiyyəti başçısının 19 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 2465 nəfər iştirak etmiş, onlardan 198 nəfər çıxış edərək müxtəlif səpkili təkliflər irəli sürmüşdür.

İrəli sürülən tələblərin və müraciətlərin 186-sı həll edilmiş, 12 məsələ isə həlli üçün aidiyyatı üzrə nazirlik və komitələrə göndərilmişdir. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalarının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, artezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

Vətəndaşların problemlərinin həllinə göstərilən qayğı və diqqətin nəticəsidir ki, keçən ilin müvafiq dövrünə nisbətən bu ilin birinci yarısında daxil olan müraciətlərdə şikayətlərin sayı nəzərə çarpacaq dərəcədə azalmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

Nazirlər Kabinetinin iclasına yekun vuran Prezident İlham Əliyev ölkədə əməkhaqqı və pensiyaların artımı nəzərə alınaraq makroiqtisadi sabitliyə böyük diqqət yetirilməsinin vacibliyini bildirib. Azərbaycan Prezidenti dövlət büdcə xərclərinin, sosial ödəmələrin, maaşların, pensiyaların artması, investisiya layihələrinin icrası, sovet dövründən banklarda qalan əmanətlərin qaytarılması fonunda inflyasiyanın aşağı səviyyədə saxlanılmasını böyük uğur adlandırıb. Regionların inkişafı üzrə ikinci Dövlət Proqramının, həmçinin Bakı və ətraf qəsəbələrin inkişafı proqramının uğurla icra olunduğunu diqqətə çatdıran Prezident İlham Əliyev növbəti aylarda regionlarda kənd yollarının tikintisinin davam etdirilməsinə böyük diqqət göstəriləcəyini vurğulayıb. Ölkə başçısı sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, meliorasiya, sənayeləşmə, içməli su, kanalizasiya, enerji, qazlaşdırma layihələrinin icrası ilə bağlı görülən işlər və qarşıda duran vəzifələrdən geniş danışıb.

Cənab İlham Əliyev Azərbaycan əhalisinin korrupsiyaya qarşı mübarizə ilə bağlı atılan addımları dəstəklədiyini bildirib. “ASAN xidmət”in fəaliyyətini xüsusi vurğulayan dövlətimizin başçısı əhali arasında qısa zaman ərzində rəğbət qazanan bu xidmətin şəbəkəsinin genişlənəcəyini də diqqətə çatdırmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

2013-cü ilin birinci yarısı ərzində rayonumuzda görülən işlər barədə Sizə qısa məlumat verdim. Ancaq görəcəyimiz işlərin miqyası olduqca böyükdür.

2013-cü il həm də siyasi baxımdan xalqımız üçün xüsusi əhəmiyyət kəsb edən əlamətdar bir tarixdir. Ona görə ki, bu il ölkəmizdə prezident seçkilərinin keçiriləcəyi, xalqımızın və əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlətçiliyimizin qorunmasının, inkişaf etdirilməsinin müəyyənləşdiriləcəyi ildir. Bu qələbəni qazanmaq isə bizim hər birimizin, hər bir qəbələlinin vətəndaşlıq borcudur.

Məruzəmin sonunda bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi ilə əlaqədar bütün qüvvələri səfərbər edəcək, yeni nailiyyətlərin qazanılması sahəsində fəaliyyətini genişləndirəcək, üzərinə düşən vəzifələrin icrası istiqamətində bütün lazım gələn tədbirləri həyata keçirəcəkdir.

Çıxışımı möhtərəm Prezidentimiz İlham Əliyein sözləri ilə bitirmək istəyirəm: “Qəbələdə sosial-iqtisadi inkişaf baxımından, abadlıq və quruculuq işləri sahəsində mühim nailiyyətlər qazanılmışdır. Dağlar diyarının bugünki inkişafı insanlarımızın hər şeyə qadir olduğunu sübut edir”.

**Hörmətli yığıncaq iştirakçıları!**

İcazə verin Sizin hər birinizin, bütün qəbələlilərin adından Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevi əmin edim ki, biz həmişə olduğu kimi 2013-cü ili də yüksək uğurla başa vuracaq, xalqımıza, vətənimizə, dövlətimizə sədaqətlə xidmət edəcəyik.

## Çıxışlar

### Rahib Əhmədov, rayon icra hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini



**Hörmətli başçı!**

**Hörmətli müşavirə iştirakçıları!**

Nazirlər Kabinetində cari ilin yarımilliyin sosial-iqtisadi inkişafının yekunları müzakirə edilərkən ölkə başçısı cənab İlham Əliyev aqrar sahəyə diqqət ayıraraq görülmüş işləri, eləcə də qarşıda duran vacib məsələləri xüsusi ilə qeyd etmişdir. Bütün bunlar respublikada qəbul edilmiş Ərzaq Təhlükəsizliyi Proqramının uğurla həyata keçirilməsinə xidmət edir.

Respublikanın iqtisadiyyatının bütün sahələrində olduğu kimi, aqrar sahəyə də dövlət qayğısının daim artması nəticəsində rayonumuzun kənd təsərrüfatı sahəsində əhəmiyyətli dəyişikliklər baş verməkdədir.

Belə ki, cari ilin məhsulu üçün ötən ilin payızında 19303 hektar sahədə buğda, 6655 hektar sahədə arpa əkilməklə ümumilikdə 25958 hektar sahədə taxıl əkilmişdir. Taxılın becərilməsində bütün aqrotexniki qaydalara ciddi əməl olunmuş və nəticədə son illərin ən yüksək məhsulu 65400 ton taxıl istehsal olunmuşdur. Onun 48430 tonu buğda, 16970 tonu isə arpadır. Taxılın orta məhsuldarlığı hər hektardan 25,2 sentner olmuşdur. Məhsulun tez və itkisiz yığılmasında texnika ilə təminat mühüm rol oynayır. Vaxtında görülmüş tədbirlər nəticəsində rayona 3 klass tipli, 1 Sampo markalı yeni və 2 ədəd qismən işlənmiş Sampo və Niva kombaynları gətirilmiş və mövcud digər kombaynlar vaxtında işlək vəziyyətə gətirilmişdir. Bunun nəticəsidir ki, başqa rayonlarda yaşanan texnika çatışmazlığı bizdə hiss olunmadı və taxıl biçini əvvəlki illərdən 3-5 gün tez və itkisiz yekunlaşdırıldı.

Rayon üzrə hər hektarın orta məhsuldarlığının 25,2 sentner olmasına baxmayaraq, ayrı-ayrı əkinçilər tərəfindən 35-45 sentner arasında məhsul əldə edilmişdir.

Qeyd olunmalıdır ki, yüksək məhsuldarlığa təsir edən amillərdən biri də torpaqların münbitliyinin qabaqcadan öyrənilməsi, gübrələrə və dərman preparatlarına olan tələbatın tam ödənilməsidir. Rayonda bu sahədə heç bir problem mövcud deyil. Əkinçilər güzəştli şərtlərlə gübrə və dərman preparatları ilə tam təmin edilir.

Cari ildə sahibkarlar və fermerlər tərəfindən 6040 hektar sahədə yazlıq bitkilər əkilmişdir. Yazlıq bitkilərin əkini zamanı heyvandarlığın yemə olan tələbatının ödənməsi üçün yem bitkilərinin əkin sahələri genişləndirilmişdir. Bu məqsədlə 1258 hektar sahədə birillik və çoxillik otlar, 1366 hektar sahədə qarğıdalı, 100 hektar sahədə günəbaxan əkilmişdir. Bol məhsul yetişdirilmiş və hazırda yem bitkilərinin toplanışı davam edir.

Heyvandarlıq sahəsi əsaslı şəkildə inkişaf etməkdədir. Bu sahədə heyvandarlıq komplekslərinin tikintisi, xaricdən gətirilən yüksək məhsuldar növlərin sayının artması, süni mayalanma tədbirlərinin genişləndirilməsi mühüm rol oynayır.

(Ardı 6-cı səhifədə).